Xalq qəzeti S.6.

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 432** **Bakı şəhəri, 6 dekabr 2022-ci il**

***“Enerji istehlakı ilə əlaqədar məhsulların etiketlənməsi Qaydaları”-nın təsdiq edilməsi haqqında***

“Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında” Azərbaycan Respublikasının 2021-ci il 9 iyul tarixli 359-VIQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 20 avqust tarixli 1433 nömrəli Fərmanının 1.1.12-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Enerji istehlakı ilə əlaqədar məhsulların etiketlənməsi Qaydaları” təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikasının Energetika Nazirliyi Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə birlikdə qanunvericiliyin tələblərinə uyğun olaraq, enerji istehlakı ilə əlaqədar məhsulların etiketlənməsinə dair texniki reqlamentlərin hazırlanması ilə bağlı tədbirlər həyata keçirsin.

**3.** Bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş “Enerji istehlakı ilə əlaqədar məhsulların etiketlənməsi Qaydaları” “Texniki tənzimləmə haqqında” Azərbaycan Respublikası Qanununun 7.1-ci maddəsinə uyğun olaraq, enerji istehlakı ilə əlaqədar məhsulların etiketlənməsinə dair texniki reqlamentlərlə eyni gündə qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***